

*Əjdər Qiyaslı*
*İqtisadçı alim, şair*

## UNUTMUR VƏTƏN

**Xalqımızın fədakar oğlu və böyük vətənpərvər şəxsiyyət general-leytenant Arif Heydərovun əziz və unudulmaz xatirəsinə.**

Arif Heydərov öz torpağını, öz xalqını və öz Vətənini hədsiz çox sevirdi. ”General Arif Heydərov” adlı xatirələr toplusunda onun həyat yoldaşı Ədilə xanım Heydərovanın xatirələrində deyilir: ”O, əsl vətənpərvər idi. Türkiyə səfirliyində 3 il konsulluq şöbəsinin rəisi işləyən zamanında olub bu əhvalat. 28 apreldi, SSRİ-nin Türkiyədəki səfirliyi üzərində SSRİ bayrağı ilə yanaşı o vaxtadək heş kimin görmədiyi bir bayraq da dalğalanır; Xarici İşlər Nazirliyindən, müxtəlif qurumlardan zənglər gəlir, o nə bayraqdır elə? Arif Heydərov cavab verir: “Bu gün mənim Azərbaycanımın respublika elan edildiyi gündür, o şərəfə qaldırılıb bu bayraq”. Məsələ düz SSRİ xarici işlər naziri Smirnova qədər böyüyür, ”Arifə olar” deyir”. Bu Sovetlər Birliyi dövründə misilsiz fədakarlıq, böyük cəsarət və odlu qeyrət simvolu idi.

**Qəlbində dinirdi rübabın simi,
Könlünü vermişdin ülvi niyyətə.
Parladın səmada bir ulduz kimi,
Yaman tez qovuşdun əbədiyyətə!**

**Sənin səxavətin, əməllərinlə,
Yanırdı ellərin nurlu çırağı.
İstərdin həmişə öz əllərinlə,
Gülüstan edəsən ana torpağı.**

**Qəlbinin tükənməz xeyirxahlığı,
O nurlu üzünə şölə saçırdı.
Sərraftək seçəndə qaranı, ağı...
Qaranlıq gündüzü qoyub qaçırdı.**

**Yolunu azmadın dumanda, çəndə;
Kamına çatdırdın xoş niyyətini.
İftixar hissilə görürdük səndə,
Ən yüksək insani keyfiyyətləri.**

**Haqdan tutulmuşdu büllurtək mayan,
Tanrı vergisiydi sənin varlığın.
Ucaldın hər kəsə nəsib olmayan,
Yüksək zirvəsinə fədakarlığın!**

**Qəlbinin atəşi sönməzdi əsla,
Hər yetən kimsədə bu istək hanı?!
Misilsiz, sönməyən bir ehtirasla
Köksünə sıxardın Azərbaycanı!**

**Başqa bir aləmdi səmimiyyətin,
Sözündə düz idin, içində mətin.
Olsa da nə qədər çətindən çətin;
Keşiyin çəkirdin haqq-ədalətin!**

**Möhtəşəm olanda dağın qayası,
Ona həsəd çəkir uçurum dərə.
Atanın, ananın halal mayası,
Çinartək yüksəltdi səni göylərə.**

**Büllurtək saf idi eşqin, amalın.
Şam kimi yanardın elin halına.
Şəfəq saçardı ki, müdrik kamalın,
Küskün olanların könlü alına.**

**Xalqına xidmətdə keçdi hər anın,
Ömründə uymadın şöhrətə, şana.
Çətin sınağından keçib zamanın
Ucalıq gətirdin Azərbaycana!**

**Vətənçün canını etsən də fəda,
Atan Nəzər kimi deyərdin: Azdı!
Nə qədər bişərəf insan olsa da,
Özünə qıyardı, sənə qıymazdı!**

**Bir namərd gülləsi fəryad qopardı,
Vaxtsız ölümünə ağladı hamı.
Səninək igidi eldən apardı,
Söndürdü aləmə nur saçan şamı!**

**Nahaqdan düşmüşük çətinə, dara;
Torpağım tufana, çənə bürünür.
Vətənin köksünə vurulub yara,
Bu gün sənin yerin yaman görünür.**

**Tarix saxlayacaq öz yaddaşında,
Hər şeyi udsa da, bu qəmi udmur.
Böyük xidmətini cavan yaşında,
Nə Vətən unutmur, nə Xalq unutmur!**

## MƏNİM POLİSİM

**Ömrü də az olur dumanın, çənin;
Könül rübabında dillənəndə sim.
Müstəqil yaşayan azad ölkənin,
Doğma övladıdır mənim polisim!**

**Tanrının gücüylə yaranıb haqdan,
Əzm ilə qoruyur haqqı nahaqdan.
Alır işığını nurlu çıraqdan,
Xalqın övladıdır mənim polisim!**

**Həyatda nə qədər olsa da çətin,
Yenilməz qayatək dayanır mətin.
Çəkir keşiyini haqq-ədalətin,
Xalqın övladıdır mənim polisim!**

**Qoruyar Vətəni fitnə-fəsaddan,
Hiyləgər düşməndən, məkirli yaddan.
Vəzifə borcunu çıxarmır yaddan,
Xalqın övladıdır mənim polisim!**

**Sarsılmaq bilməyir darda, çətində;
Mətin dözümü var dəyanətində.
Cəsarət göstərir şücaətində,
Xalqın övladıdır mənim polisim!**

**Əzmini, gücünü eldən alıbdır;
Ana Torpağına sadiq qalıbdır.
Həmişə, hər yerdə məğrur olubdur,
Xalqın övladıdır mənim polisim!**

**Xalq cəsur böyüdür hər övladını,
Tanıyır dostunu, bilir yadını.
Biz uca tuturuq polis adını,
Xalqın övladıdır mənim polisim!**

**Doğma Azərbaycan onun yurdudur,
Dağ kimi əyilməz mətin ordudur.
Ay ellər, obalar, bilin ki, budur:
XALQIN ÖVLADIDIR MƏNİM POLİSİM!**

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**